İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 30 SENTYABR 2021-Cİ İL №018(141)


Səh. 2 ROMA XİYARI - AZƏR MUSAOĞLU YAZIR

Səh. 3 QARDABANİ GƏNCLƏR MƏRKƏZİNDƏ ANIM GÜNÜ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB

Səh. 4 2023-CÜ İLƏ QƏDƏR HƏR KƏS MƏKTƏBDƏ MÜƏLLİM İŞLƏYƏ BİLƏR

Səh. 5 ŞEYTANLA ŞƏKİL ÇƏKDİRƏN - İBRAHİMXƏLİL YAZIR

Səh. 5 HEYVANLARIN İNSAN SEVGİSİ - VÜQAR VƏKİLOĞLU YAZIR

Səh. 6 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - AFİQ MUXTAROĞLU YAZIR

Səh. 7 "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ


## OKTYABRIN 4-DÜ MƏKTƏBLƏRDƏ ƏYANİ TƏDRİS BƏRPA OLUNUR



Oktyabrın 4-dən etibarən Gürcüstanda ictimai məktəblərdə siniflərdə əyani tədris bərpa olunacaq. Bu barədə qərarı Dövlət Qurumlararası Koordinasiya Şurası qəbul edib.

Digər qərarla oktyabrın 4-də uşaq bağçaları da fəaliyyətlərini bərpa edəcək.

Həmin tarixdən həmçinin uşaq əyləncə mərkəzləri də açılacaq.

## EKATERİNE TİKARADZE: GÜRCÜSTANDA EPİDEMİOLOJİ VƏZİYYƏT SABİTLƏŞİB



"Gürcüstanda koronavirusa yoluxma hallarında kəskin azalma müşahidə edilməsə də, epidemioloji vəziyyət sabitləşib". Bunu Gürcüstanın səhiyyə naziri Ekaterine Tikaradze deyib.

Onun sözlərinə görə, hazırkı mərhələdə xəstəxanalarda çarpayı çatışmazlığı yoxdur.

Nazir bildirib ki, yoluxma sayının azaldılması üçün əlavə tövsiyələr təqdim olunacaq.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN 8 946 NƏFƏR DÜNYASINI DƏYİŞİB



Sentyabrın 30-na olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan 8 946 nəfər dünyasını dəyişib. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 613 012 nəfər, sağalanların sayı isə 585 071 nəfər olaraq göstərilib. Sentyabrın 30-na kimi ölkədə 1 785 862 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 52 nəfər, stasionar nəzarətdə 4 223 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 734 nəfə olaraq göstərilib.

## GÜRCÜSTANDA PEYVƏNDİN ÜÇÜNCÜ DOZASININ VURULMASI PLANLAŞDIRILIR




Səhiyyə nazirinin müavini Tamar Qabunia jurnalistlərə açıqlamasında bildirib ki, Gürcüstanda koronavirusa qarşı vaskinasiya prosesində üçüncü dozanın ("buster" doza) tətbiqi nəzərdə tutulur.

O, "buster" dozanın ilk növbədə zəif immunitetli şəxslərə vurulacağını deyib.

Nazir müavini həmçinin bildirib ki, son günlər Gürcüstanda peyvəndlənmə səviyyəsi aşağı düşüb. "Ən yüksək göstərici Tbilisidə qeydə alınıb. Şəhərin yaşlı əhalisinin 60 faizdən çoxu artıq vaksinasiyadan keçib".



# ROMA XİYARI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Biz tərəflərdə tərəvəzlərdən xiyar çox əkilib-becərildiyindən, onun növlərini, saxlanmasını və istifadəsini hamı yaxşı bilir. Biz tərəflərdə xiyarın yetişməsi üçün torpaqlar da münbitdir. Xiyarı tərəvəz kimi qeyd etməyim onu alma, armud, portağal, banan və sair meyvələrlə bir qabda süfrəyə *meyvə* kimi qoyanların gözündən, qulağından iraq. İraq deyəndə ki, şahidlərin dediyinə görə, İranda xiyar süfrəyə meyvə kimi qoyulur.

Əlbəttə, istər İran olsun, istər Turan, xiyarı istər meyvə kimi, istərsə də tərəvəz kimi, lap elə giləmeyvə kimi istifadə etmək hərənin öz işidir və onun meyvə və ya tərəvəz olmağı xiyarlığına heç bir təsir etmir. Etsə də, bu, xiyarın sadəcə təyinatı ilə bağlı olur, məsələn, kimsə xiyarı gözəl bir vazda, meyvələrin arasında qonaqlar üçün bəzədilmiş süfrəyə qoya bilər, kimsə salata doğrayıb qoya bilər, kimsə aclığını yatırtmaq üçün milli “fəstfud” kimi pendir-çörəklə xartıldadaraq əlindəcə yeyə bilər, kimsə dərisini gözəlləşdirmək üçün üz maskası kimi də istifadə edə bilər və sair, və ilaxır.

Əslində, gündəmdə qalmaq üçün mən də seçkilərdən yazmaq istəyirdim. Xiyarın bu yazıya haradan, necə gəlib girdiyini izah edə bilmirəm... yəqin xiyarın qiymətinin bahalaşmasının səbəb və nəticəsidir. Nə isə...

“Roma xiyarı” ifadəsini çoxunuzun eşitdiyinə inanmıram düzü, elə mən də bu yaxınlarda eşitdim və ifadəni “raskrutka” etmək qərarına gəldim.

Deməli, bu ifadə nəyinsə həddindən artıq və mənasız yerə şişirdildiyini bildirir. İfadəni ilk dəfə təmsil ustası İ.A.Krılov “Yalançı” adlı təmsilində işlətmişdir və sonradan danışıq dilinə keçərək yayılmışdır. Təmsildə uzaq səfərdən qayıdan zadəgan olduğu ölkə haqqında şişirdərək və lovğalanaraq danışır. O, xeyli yalanlar uydurur, Romada *dağ boyda xiyar* gördüyünü deyir. O zamandan bir şeyi şişirdərək danışanlar haqqında “Roma xiyarından danışır” ifadəsi işlədilməyə başlayır. Onu da deyim ki, xiyar Roma xiyarı olsa da, rus torpağında yetişdirilərək ixrac edilib. Bazarlı olsun!

Keçək öz torpağımızın yetişdirdiyi xiyara (nəzərə alsaq ki, bir neçə növü var, o zaman cəm şəkilçisi artıraraq *xiyarlara* yazmalıyam). Yuxarıdakı abzasdan da bəlli olur ki, “Roma xiyarı” şişirdilmiş olur, bizdə buna toxumluq xiyar deyilir: böyüyür, şişir, saralır və çürüyür, sonra da toxumu tutulur. Toxumluq xiyar bəzən qovun boyda olsa da yeyilmir. Sən onu nə qədər istəyirsən bəslə, kübrələ, gecə-gündüz qulluq elə, şişirt, təriflə, lap şəninə şeir qoş, mahnı bəstələ, şəklini çəkib hər yerə yapışdır, kənd-kənd, şəhər-şəhər gəzdir, televiziya verilişlərinə çıxart... xeyiri yoxdur, yeyilmir ki, yeyilmir.

Adama deyərlər, camaat halal zəhməti ilə, borc-xərclə, yuxusuz qalaraq, istixanalarda gecələyərək əkib-becərdiyi təzə-tər xiyarını sata bilmir, sən də şişirdilmiş xiyarı sırımağa çalışırsan. “Roma xiyarı” ifadəsindən xəbərimiz olmasa da, “yerli xiyar” ifadəsindən ki, xəbərimiz var. “Hamı yerli mal alsın, xeyri vətənə qalsın” reklamını da eşitmişik.

Xiyar mövsümü isə bitmək üzrədir. İnsan hər şeyin qədrini yox olanda, bitəndə, tükənəndə bilir. Birazdan öz təbii xiyarlarımıza “bahadır” deyənlər, xaricdən gələn geni dəyişdirilmiş xiyarlara üç qat artıq pul verib alacaqlar.

Əlbəttə, kimin necə xiyar alması öz şəxsi işidir. Axı romalı olmasaq da, romalılar kimi seçim etmək hüququmuzu beynəlxalq təşkilatlar da tanıyır. Kiminsə geni dəyişdirilmiş, şişirdilmiş “Roma xiyarı” xoşuna gələ bilər, kiminsə də təbii, yerli xiyar. “Xiyar-xiyardır” deyib xiyarın heç bir növü arasında fərq qoymadan turşu xiyarından tutmuş tikanlı, acı xiyara qədər həzmi-rabedən keçirənlər də az deyil. Xiyar turşusunun insan orqanizminə ziyanlı olduğu və acı xiyarın faydalı olduğu haqqında da çox eşitmişik.

Xülasə, qızıldan qiymətli vaxtınızı alıb “Roma xiyarından danışmaq” istəmirəm. Bu seçkiqabağı “Roma xiyarı” bizə çoxmu lazımdır axı?..

## OKTYABRIN 2-Sİ KEÇİRİLƏCƏK SEÇKİLƏRƏ 105 NƏFƏR AZƏRBAYCANLI NAMİZƏD QATILIB



Oktyabrın 2-si Gürcüstanda yerli özünüidarəetmə orqanlarına seçkilər keçiriləcək. Gürcüstan vətəndaşları növbəti 4 il üçün 64 mer və 64 sakrebuloya (yerli məşvərətçi orqan) iki mindən çox deputat seçəcəklər.

Gürcüstanın Mərkəzi Seçki Komissiyasında qeydiyyata alınmış namizədlərin siyahısında 105 nəfər azərbaycanlı yer alıb. Sentyabrın 20-də dərc olunan sənədə əsasən, onlardan üçü – Kənan Ömərov (Gürcü Arzusu Partiyası), Əhməd İmamquliyev (“Avropalı Gürcüstan”) və Eldar Mustafayev (Vahid Milli Hərəkat Partiyası - VMHP) Marneuli meri vəzifəsinə iddialıdırlar. Yerdə qalan 102 nəfər isə yerli orqanlarda təmsilçilik uğrunda mübarizə aparır.

Seçki marafonuna ən çox azərbaycanlı namizədlə qoşulan partiya müxalif VMHP-dir. Partiya 32 nəfər azərbaycanlı namizəd irəli sürüb.

Azərbaycanlı namizədlərin sayına görə II yerdə Gürcü Arzusu Partiyasıdır. Hakim partiya seçkilərə 29 azərbaycanlı namizədlə gedir.

Üçüncü yerdə isə 13 azərbaycanlı namizədlə “Avropalı Gürcüstan - Azadlıq naminə hərəkat” partiyasıdır.

Keçmiş Baş nazir Giorgi Qaxarianın “Gürcüstan naminə”, “Lelo”, “Avropalı demokratlar” partiyaları, “Üçüncü qüvvə” platforması hər biri 5 nəfər azərbaycanlı namizəd təqdim edib. Leyboristlər, Vətənpərvərlər Alyansı, “Qirçi” partiyalarının hər biri 2, “Xalq partiyası” və bir təşəbbüs qrupunun hər biri isə 1 azərbaycanlı namizədi öz siyahılarına daxil edib.

Namizədlər Kvemo Kartli bölgəsinin Marneuli, Bolnisi, Dmanisi, Qardabani, Tsalka rayonları və Rustavi şəhəri, Kaxeti bölgəsinin Telavi, Saqareco və Laqodexi rayonları, Mtsxeta-Mtianeti regionunun Mtsxeta bələdiyyəsi üzrə irəli sürülüb. Marneuli, Bolnisi və Dmanisi ən çox azərbaycanlı namizədin olduğu ilk üç bələdiyyədir.

Azərbaycanlı namizədlərin cinsi mənsubiyyətlərinə nəzər salanda kişilərin mütləq üstünlük təşkil etdiyi görünür. Belə ki, 105 namizədin yalnız 3-ü qadındır.

Namizədlər qələbə qazanmaq üçün seçicilərin səslərinin 50 %-dən çoxunu əldə etməlidirlər. Tələb olunan səsin toplanmayacağı konkret şəhər və ya rayonda seçkilərin ikinci mərhələsi təyin olunacaq.

*Mənbə: report.az*

## GÜRCÜSTAN KORONAVİRUSA QARŞI DƏRMANLAR ALACAQ




Gürcüstanın baş infeksionisti, Tbilisi Yoluxucu Xəstəliklər Xəstəxanasının direktoru Tengiz Tsertsvadze bildirib ki, Gürcüstan COVID-19 infeksiyası əleyhinə iki yeni preparat alacaq.

Onun sözlərinə görə, dərman vasitələri ölkəyə bu həftə ərzində və oktyabr ayının ikinci yarısında gətiriləcək və hər iki preparat koronavirusa yoluxan pasiyentin vəziyyətinin ağırlaşması riskini kəskin şəkildə azaldır. *“Bu dərmanlar – Baritsitinib və monoklonal anticismlərdən hələlik bir neçə aparıcı ölkədə – ABŞ, Böyük Britaniya və İtaliyada istifadə olunur. Gürcüstan bu iki preparatın tətbiq olunacağı ilk ölkələrdən biri olacaq”,* - T.Tsertsvadze deyib.

## NATO GƏMİLƏRİ GÜRCÜSTANIN ƏRAZİ SULARINA DAXİL OLUB



NATO-nun beş gəmisi Gürcüstanın ərazi sularına daxil olub. Bu barədə ölkənin Daxili İşlər Nazirliyinin Sərhəd Polisindən bildirilib.

Bölmənin tərkibinə İspaniya (flaqman), İtaliya, Bolqarıstan, Rumıniya və Türkiyənin hərbi gəmiləri daxildir.

Batumi limanında yerləşən gəmilərin iştirakı ilə Qara dənizdə Gürcüstanın Sərhəd Mühafizəsi Xidməti ilə birgə təlimlər keçiriləcək. Məqsəd Gürcüstanın dəniz qüvvələri və NATO arasında qarşılıqlı əlaqələrin və uyğunluq səviyyəsinin artırılması, Gürcüstanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsidir.

# İ.QARİBAŞVİLİ: GÜRCÜSTAN PANDEMİYA DÖVRÜNDƏ AZƏRBAYCANDAN BÖYÜK KÖMƏK ALIB



*"Gürcüstan pandemiya dövründə Azərbaycandan böyük kömək alıb".* Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın iclasında deyib.

*"Bu dövrdə azərbaycanlı dostlarımız, qardaşlarımız bizə böyük köməklik göstərdi. Buna görə açıq şəkildə sizə təşəkkürümü bildirirəm",* - deyə Baş nazir bildirib.

Onun sözlərinə görə, son illər ərzində iki ölkə arasındakı münasibətlərdə kifayət qədər böyük irəliləyiş əldə olunub: "Lakin hesab edirəm ki, potensial daha böyükdür və onu istifadə etmək lazımdır. Bugünkü toplantı cari məsələlərin müzakirəsi ilə yanaşı, gələcək planların müzakirəsi üçün də yaxşı imkan verir".

# D.ZALKALİANİ: ƏRDOĞAN AZƏRBAYCANLA ERMƏNİSTAN ARASINDAKI VASİTƏÇİLİYİMİZİ ÇOX MÜSBƏT QİYMƏTLƏNDİRİB



*"Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Gürcüstanın Azərbaycan və Ermənistan arasındakı vasitəçiliyini çox müsbət qiymətləndirib".* Bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani baş nazir İrakli Qaribaşvili və Türkiyənin dövlət başçısı arasında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində baş tutan görüşü şərh edərkən deyib.

Onun sözlərinə görə, Gürcüstanın tərəfdaşları ölkənin irəli sürdüyü təkliflər barədə yaxşı məlumatlıdırlar: *"Biz Tbilisinin Cənubi Qafqazda dayanıqlı sülh üçün platformaya çevrilməsi, yeni təşəbbüs və layihələrimizlə bağlı türkiyəli tərəfdaşlarımızdan daha bir güclü dəstək aldıq".*

XİN başçısı qeyd edib ki, görüşdə həmçinin Gürcüstanın bölgədəki mühüm rolunun gələcək perspektivləri və ikitərəfli əməkdaşlıq məsələləri də müzakirə olunub.

# SOCAR YORMUĞANLIDA UŞAQ BAĞÇASININ İNŞASINA BAŞLAYIB




Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Gürcüstanda həyata keçirdiyi sosial layihələr çərçivəsində Saqareco bələdiyyəsinin Yormuğanlı kəndində uşaq bağçasının inşasına başlayıb. Sentyabrın 28-i bağça binasının təməli qoyulub.

Təməlqoyma mərasimində Gürcüstan parlamentinin deputatı David Sonqulaşvili, Kaxeti bölgəsinin qubernatoru İrakli Şioşvili, Saqareco meri vəzifəsinə namizəd Avtandil Qulikaşvili, "SOCAR Energy Georgia" şirkətinin baş direktoru Mahir Məmmədov iştirak ediblər.

Bildirilib ki, 22 000 nəfər əhalisi olan Yormuğanlı kəndində uşaq bağçasının tikintisini bütünlüklə "SOCAR Energy Georgia" həyata keçirəcək və xeyriyyə məqsədilə dövlətə təhvil verəcək. 160 yerlik uşaq bağçası beynəlxalq və Gürcüstanda müvafiq tikililər üçün müəyyən olunmuş standartlara uyğun inşa ediləcək.

Qeyd edək ki, sentyabrın 18-də şirkətin Laqodexinin Qabal kəndində inşa etdirdiyi uşaq bağçasının açılışı olub. Müəssisə xeyriyyəçilik əsasında Gürcüstan dövlətinə təmənnasız təqdim olunub.

# QARDABANİ GƏNCLƏR MƏRKƏZİNDƏ ANIM GÜNÜ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB



Qardabani Gənclər Mərkəzinin ofisində II Qarabağ müharibəsi şəhidlərinin Anım Gününə həsr olunan tədbir keçirilib.

"Yeni Yol" xəbər verir ki, tədbiri Qardabani Gənclər Mərkəzinin icraçı direktoru Hacı Bəkiroğlu açaraq qonaqları salamladıqdan sonra şəhidlər bir dəqiqəlik sükutla yad edilib. H.Bəkiroğlu tədbir haqqında iştirakçılara məlumat verib və bu günün əhəmiyyətindən danışıb.

Tədbirdə Kalinino ictimai məktəbinin müəllimi Muradxan Eminov, Tbilisi Dövlət Universitetinin İqtisadiyyat fakültəsinin tələbəsi Səlahəddin Piriyev, Qardabani Gənclər Mərkəzinin dil kurslarının gürcü dili müəllimi İsə Xəmmədov çıxış ediblər.

Daha sonra mərkəzin nəzdindəki dil kurslarına gələn tələbələrlə Anım Günü haqqında müzakirələr olunub, onlar bu haqda məlumatlandırılıblar.

# YTB BAŞQANI ALMANİYADA İRQÇİLİYƏ YOX DEDİ



Yurtdışı Türkler ve Akraba Topluluklar (YTB) başqanı Abdullah Eren Almaniya səfəri çərçivəsində irqçi terror hücumlarında qətl edilən türklərin qəbirlərini və abidəni ziyarət edib. Abdullah Eren ilk olaraq Almaniyanın Hanau şəhərində 19 fevral 2020-ci ildə irqçi terrorçular tərəfindən şəhər mərkəzində təşkil edilən hücumda həyatını itirənləri qəbirləri başında yad edərək qətl edilənlərin yaxınlarıyla bir araya gələrək irqçiliyə yox deyib.

Qeyd edək ki, 19 fevral 2020-ci ildə Almaniyanın Hanau şəhərində iki kafeyə irqçi terror hücumu zamanı 9 nəfər qətlə yetirilmişdir, onlardan 4-dü miliyətcə türk idi.

# TƏHSİL NAZİRLİYİ MÜƏLLİMLƏR ÜÇÜN VAKSİNASİYANIN MƏCBURİ OLACAĞI BARƏDƏ YAYILAN MƏLUMATLARI YALAN ADLANDIRIB



Təhsil və Elm Nazirliyi müəllimlər üçün koronavirusa qarşı vaksinasiyasının məcburi olacağı barədə yayılan məlumatları həqiqətə uyğun olmayan adlandırıb.

Bildirilib ki, nazirlik müəllimləri mütəmadi olaraq peyvənd vurdurmağa çağırır.

*"Vaksinasiya könüllüdür. Tədris prosesinin təhlükəsiz mühitdə davam etməsi üçün nazirlik pedaqoqları peyvəndlənməyə çağırır. Bundan başqa, YUNİSEF-lə birgə təhsil işçiləri arasında vaksinasiya barədə məlumatlılığın artırılması işləri aparılır. Hazırkı mərhələdə dövlət və özəl məktəblərin müəllimləri və təhsil müəssisələrinin rəhbərliyinin əməkdaşlarının 65 %-i vaksinasiyadan keçib və proses davam edir",* - məlumatda deyilir.

Qeyd edək ki, ölkənin baş infeksionisti, Tbilisi Yoluxucu Xəstəliklər Xəstəxanasının direktoru Tengiz Tsertsvadze sentyabrın 30-u bildirib ki, müəllimlər məcburi qaydada peyvənd vurdurmalı olacaqlar və bununla bağlı müvafiq qərar hazırlanıb.

# MƏKTƏB DİREKTORLARI MÜƏLLİMİ MÜSABİQƏDƏNKƏNAR İŞLƏ TƏMİN EDƏ BİLƏRMİ?



**Yeni tədris ili üçün məktəblərin çoxu vakansiya elan etdi. Müəllim olmaq istəyənlərin çoxu qeyd edirlər ki, bəzi məktəb direktorları yeni kadrın qəbul edilməsi qərarını birbaşa verir. Yəqin bu kimi ifadələri əksəriyyətiniz eşitmisiniz: "Söhbət mərhələsində iştirak etməyin nə mənası var? Onsuz da əvvəlcədən kimi qəbul edəcəklərini seçiblər", "Direktorlar subyektiv qərar qəbul edirlər", "Yer boşalan zaman direktorlar artıq saatları işləyən müəllimlər arasında bölürlər" və s.**

*Məktəb direktorlarının bu kimi qərarlar verməsi nə dərəcədə ədalətlidir? Məktəb rəhbərinin qanunla bunlara hüququ çatırmı?*

*Belə bir sənəd mövcuddur – Müəllimlik fəaliyyətinə başlamaq və dayandırmaq qaydası. Sənəddə namizədlə bağlı tətbiq edilmiş xüsusi kvalifikasiya tələbləri, müsabiqənin mərhələləri və müsabiqənin pozulmasının/dayandırılmasının əsasları qeyd olunub.*

**Müsabiqənin elan edilməsi:**

• Məktəbdə işləyən, dəvət edilmiş, yaxud əvəzedici müəllim üçün vakansiya olduğu halda daxili və açıq müsabiqə elan olunur.

• Açıq müsabiqədə tələbləri qane edən istənilən maraqlanan şəxsin, daxili müsabiqədə isə yalnız məktəbdə işləyən müəllimlərin iştirak etmək hüququ var.

• Məktəbin maneəsiz fəaliyyət göstərməsi üçün müsabiqə elan edilən məqamda vakansiya olmayan vəzifəyə məktəbin müsabiqə elan etmək səlahiyyəti var, ancaq qeyd olunan vəzifənin müsabiqə bitənə qədər vakansiya olacağını təsdiqləyən əsas olmalıdır.

• Məktəbdə vakansiya olanda, həmin yer daxili müsabiqə əsasında doldurulur.

• Daxili müsabiqə ilə vakansiya dolmazsa, məktəb direktoru açıq müsabiqə elan etməlidir.

• Məktəb direktoru təsdiqlənmiş qərar əsasında məktəbdə müəllim vəzifəsinə olan vakansiyanı daxili müsabiqə elan etmədən, açıq müsabiqə vasitəsi ilə doldurmaq səlahiyyətinə malikdir.

• Məktəbdə müsabiqə elan edilməsi məktəb direktorunun fərdi inzibati-hüquqi aktı, sərəncamı əsasında olur. Həmin sərəncama əsasən müsabiqənin vaxtı, şərtləri, müsabiqə komissiyasının tərkibi və s. müəyyən edilir.

• Açıq müsabiqənin elan edilməsi barədə məlumat www.teacherjobs.ge veb-səhifəsində ictimai şəkildə yayımlanmalıdır.

• Daxili müsabiqə barədə məlumat isə ictimai məktəbdə, bütün müəllimlər üçün əlçatan yerdə elan edilməlidir.

• www.teacherjobs.ge saytında müsabiqənin yerləşdirilmə müddəti Müəllimlərin Peşəkar İnkişafı Mərkəzinin direktorunun fərdi inzibati-hüquqi aktı əsasında müəyyən edilir.

• Açıq müsabiqənin elan edilməsi barədə məlumatı məktəb həmçinin öz veb-səhifəsində, iş elanları ilə bağlı müvafiq veb-səhifədə, sosial şəbəkədə və nəşriyyat orqanlarında da yerləşdirə bilər.

• **Müsabiqə elanında aşağıdakı məlumatlar olmalıdır:**

a) Məktəbin adı;

b) Açıq müsabiqə qaydası ilə doldurulmuş müəllimlər üçün vakansiyanın adı və fənnin, sinfin qeyd edilməsi;

c) Namizəddən tələb olunan kvalifikasiya;

ç) İş saatları barədə məlumat;

d) Əməkhaqqı barədə məlumat;

e) Məktəbin əlaqə məlumatları;

ə) İşə başlama tarixi;

f) Ərizənin təqdim olunmasının son müddəti;

g) Məktəbin qərarı ilə digər məlumatlar.

Müsabiqə elan edildikdən sonra məktəb tərcümeyi-halları seçir və istədiyi namizədlərlə əlaqə saxlayır. İkinci mərhələ söhbət, müsahibə mərhələsidir. Komissiya qərarın qəbul edilməsindən on gün müddətində hər bir namizədə elektron, yaxud yazılı şəkildə qərar barədə məlumat verir.

Obyektiv səbəblər mövcud olduğu halda, istənilən mərhələdə, komissiyanın son qərarını namizədlərə bildirənə qədər, məktəbin elan edilmiş müsabiqəni dayandırmaq səlahiyyəti var.

Sənəddə həmçinin yazılıb ki, məktəbin maneəsiz işləməsini təmin etmək üçün, təcili ehtiyac olduğu halda direktorun çağırılmış, yaxud əvəzedici müəllimi müsabiqədənkənar məktəbdə işlə təmin etmək səlahiyyəti var.

# 2023-CÜ İLƏ QƏDƏR HƏR KƏS MƏKTƏBDƏ MÜƏLLİM İŞLƏYƏ BİLƏR



Təhsil və Elm Nazirliyinin qərarı ilə 2023-cü ilə qədər istənilən ixtisasa sahib olan şəxs müəllim olaraq işləyə bilər. Bu barədə sərəncamda deyilir.

Nazirlik müxtəlif ixtisasa sahib olan gənclərin müəllim peşəsinə cəlb edilməsinə Müəllimlərin Peşəkar İnkişafı və Karyerada İrəliləyişi Sxemində dəyişikliklər edildikdən sonra qərar verib. Təcrübəçi (praktikos) müəllim statusu ləğv edildi və sxemə əsasən, yalnız üç – baş, aparıcı və mentor müəllim statusu var.

Təcrübəçi müəllimlərə kompetensiyalarını təsdiqləmək üçün çox imkan yaradıldı. Son imkan isə 2021-ci ilin yayında keçirilmiş imtahanlardan sonra (qazandıqları bala baxmayaraq) onların daha bir rüb məktəbdə işləmələri idi.

Minlərlə müəllim kompetensiyasını təsdiq edəcək imtahanları verə bilmədi. Məhz müəllim peşəsində kadr çatışmazlığı yaranmasın deyə qanunda dəyişiklik edildi və 2023-cü ilə qədər hər kəs müəllim olaraq məktəbdə işlə təmin edilə bilər. Əsas odur ki, bir neçə mühüm tələbləri qane etsinlər.

• 2023-cü ilə qədər ən azı bakalavr, yaxud ona bərabər akademik dərəcəsi olan hər kəs "axtaran" müəllim ola bilər və onlardan milli tədris planına uyğun fənn/fənn qrupunun akademik dərəcəsinə sahib olmaq tələb olunur, bu, həmçinin hərbi/idman peşəsində təhsili olan şəxs də ola bilər.

• Müəllim olmaq istəyənlər məktəbdə "axtaran" müəllim olaraq işləyənə qədər tədris edəcəkləri fənnin imtahanını verməlidirlər.

• Həmçinin 2018-2019-cu tədris ilinin başlanğıcında məktəbdə işləmiş və Müəllimlərin Peşəkar İnkişafı və Karyerada İrəliləyişi Sxeminə qoşulmuş müəllimlər da "axtaran" müəllim hesab olunur.

Qeyd edildiyi kimi, ixtisasından asılı olmayaraq məktəbdə işlə təmin edilmə imkanı var. Əsas odur, şəxs müəllim kompetensiyasını təsdiqləyəcək imtahanı verə bilsin. Fənn imtahanını verdikdən və məktəbdə işlə təmin edildikdən sonra onlar "axtaran" müəllim proqramına qoşulacaqlar, qeyd olunan proqramda akademik kurs çərçivəsində pedaqogikanı öyrənəcəklər. Praktiki kurs çərçivəsində isə dərslər keçəcəklər. Proqrama qoşulmuş şəxslər akademik və praktiki kursu başa vurduqlarına əsasən qiymətləndiriləcəklər və baş müəllim statusu qazanacaqlar.

# TAM ƏMƏKHAQQI ALMASI ÜÇÜN MÜƏLLİM NEÇƏ SAAT DƏRS DEMƏLİDİR?

**Müəllimin əməkhaqqı iş saatlarına əsasən hesablanır. Bu, qanunla müəyyən edilib. İş saatlarına görə, üç tip iş qrafiki var:**

• Qismən ağır iş qrafiki – həftədə18-dən az dərs saatı;

• Tam qrafik – həftədə 18 saat dərs;

• Tam qrafikdən artıq – həftədə 19, yaxud daha artıq dərs saatı.

Qismən ağır iş qrafiki zamanı müəllimin əməkhaqqı və əlavəsi azalır (sinif rəhbəri əlavəsindən başqa). Tam qrafik halında isə müəllim tam əlavə və saatlara əsasən hesablanmış əməkhaqqı alır.

Baxmayaraq ki, 18 saat tam əlavə almaq üçün kifayətdir, müəllimlərin böyük qismi maaşlarının artırılması üçün daha çox işləməyə çalışırlar.

Qanuna görə, tam qrafikdən artıq iş üçün (həftədə 19-dan 25 dərs saatına qədər) müəllimə əlavə verilir. Həftədə hər əlavə dərs saatı üçün 5 lari verilir. 25 saatdan artıq olan halda isə müəllim əlavə maaş ala bilmir.

Məktəbin müəllimə 25-dən artıq dərs saatı vermək səlahiyyəti var.




Ancaq qanunla maksimum 25 saata görə əməkhaqqı ödənilir.

Təhsil ekspertlərinin bir qismi düşünür ki, pedaqoqun çox əməkhaqqı almaq üçün işləmək motivi tədrisin keyfiyyətinə mənfi təsir göstərir.

Xatırladaq ki, status əlavəsini tam almaq üçün müəllimin həftədə 15 saat dərsinin olması kifayətdir. İbtidai sinif müəllimləri üçün isə statusun tam əlavəsini almağa həftədə 13 saat da kifayət edir.

---

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

*Gürcü dilindən tərcümə etdi:*

**Aynurə ƏLİYEVA**

# ŞEYTANLA ŞƏKİL ÇƏKDİRƏN



Həmin il Miçiqan ştatının Detroyt şəhərində şeytana heykəl qoyulduğu barədə söz-söhbət gəzirdi. Heykəllə şəkil çəkdirmək həvəsində olanların sayı da az deyilmiş. Amma heykəllə şəkil çəkdirmək üçün də nə az, nə çox, düz yetmiş beş dollar məbləğ ödəmək lazım imiş. Bütün bunlar da "inanc azadlığını müdafiə etmək" adı altında baş verirdi.

Həmin xəbərlər ona görə az qala bütün təfərrüatları ilə yadımda qalıb ki, bu Detroyt deyilən şəhər coğrafiyadan yaxşı yadımda qalan beş göldən ibarət Böyük göllər hövzəsində yerləşir. 2015-ci ildə də "dizayn şəhər" elan edilib. Üstəlik də Dubayla qardaşlaşmış şəhərdir. "Dizayn şəhər" adı UNESCO tərəfindən verilir və çox arzulayırdım ki, kaş günlərin bir günü Batumi şəhəri də bu ada layiq görülə. Çünki Mirzə Qələm Batumini çox öyürdü, çox təriflər yağdırırdı. Özü də təkcə məhəbbət aşiqləri Əli ilə Ninoya heykəl qoyulduğuna görə yox... Onun tövsiyəsi ilə mən də – dostlarla birlikdə – çırpınan, döyünən Qara dənizin sahillərində oldum və hamımız da səfərdən məmnun qaldıq.

Amma, necə deyərlər, sən saydığını say, gör fələk nə sayır...

Heç bir ay keçməmiş – Detroytdan bu qədər uzaqlarda – xəbər çıxdı ki, bəs deməzsənmi, Mirzə Qələm şeytanla şəkil çəkdirib. Əhvalat da şeytanağacının altında baş veribmiş.

Şeytanağacının – elmi dildə: *Gleditsia* – iri meyvələri indi içində olduğumuz sentyabr ayında yetişir və bütün qışı da budaqlardan asılı şəkildə qalır: yəni, sanki dara çəkilmiş vəziyyətdə! Mirzə Qələm də nəsli kəsilməyə həssas olan Xəzər şeytanağacını (lat. *Gleditsia caspica*) araşdırmaq üçün Lənkəran tərəflərdə ezamiyyətdə idi.

Yeri gəlmişkən, "şeytanağacı" adı müxtəlif xalqlarda müxtəlif ağaclara verilmişdir. Məsələn, uzaq Afrikada baobab ağacının bir neçə vətənində (tutaq ki, Madaqaskarda və Anqolada) yerlilər baobabı "şeytanağacı" adlandırırlar. Hesab edirlər ki, şeytan bir zamanlar bu ağacın budaqları altında gizləndiyinə görə, Yaradan ağacı cəzalandırmış və onu "başıaşağı" çevirmişdir.

Mirzə Qələmin şeytanla şəkil çəkdirdiyini eşidən kimi dünyada ilk dəfə fototəsvir alan Jozef Nyepi, bu unudulmaz fransızı xatırladım. İlk fotoşəklin əldə edilməsi böyük zəfər, yaxşı yaradıcılıq sayılsa da alimi fikrimdə məzəmmət eləməyə başladım: "Rəhmətliyin oğlu, axı neyləyirdin bu "işıqla yazmağı", bu fotoqrafiya sənətini? Elə ki, gizlin-pünhan bir iş tutmaq istəyirsən, bir anın içində "məşhuri-cahan" olursan. Yoxsa elə bilirdin ilk çəkdiyin şəkillə, yəni "Pəncərədən La-Qrassın mənzərəsi" ilə bu iş buradaca bitəcəkdir? Adəm və Həvvanı qadağan edilmiş ağacın barını yeməyə həvəsləndirən şeytanla, şərin ilkin səbəbi şeytanla Mirzə Qələm əhvalatını ellə bir eləyən sənin tapdığın üsul olmadımı?

Amma M.V.Vidadinin:

*Vidadi xəstəni gəl indi tanı,*
*Hanı o sən görən şəkli, nişanı? –*

misralarını da xatırlayan kimi kövrəlib yumşaldım: axı şəkillər olmasaydı necə xatırlayardıq?..

Qalır Mirzə Qələm. Onun da qarasınca az asıb-kəsmədim: "Qardaş, get xan çinarın altında şəkil çəkdir, nar, heyva, alma ağacı altında self elə. Bu şeytanağacı sənəmi qalmışdı axı? Sən ki, az qala şeytana belə, papış tikənlərdən sayılırdın. Şərə baş əyənlər, nahaqqa sitayiş edənlər hara, sən hara? Bu mövhum varlıq səninləmi gerçək oldu elə?

Burasını da deyim ki, Mizə Qələm Dərman bitkiləri və Qadın azadlığı mövzularında yazan öncül yazarlarımızdandır. Ana dilimiz haralarda işləkdirsə, oraları da vətəni sayır. Günaha yazmasınlar: indi burada gətirdiyim iki sitatı da ilk dəfə onun qeyd dəftərçəsindən oxumuşam:

Qadını gözəl yaradan Tanrıdır, sevimli edənsə şeytan.

(V.Hüqo)

Gecə – ulduzları və qadınları gözəl göstərir.

(C.Bayron)

...Aradan bir neçə həftə keçdi. Mirzə Qələm ezamiyyətdən qayıdıb gəldi. Məktəbdə görüşdük. Dərman bitkiləri və qadın azadlığı carçısı özünün həyat şüarına çevirdiyi bircə misra ilə toz basmış auranı dəyişməyə çalışdı:

*Sürüklənən bəşəriyyət qadınla yüksələcək!..*

P.S.

Şeytanla şəkil çəkdirmək əhvalatına gəlincə, sən demə, Azərbaycan səfəri daha bərəkətli olsun deyə Mirzə Qələm Vaqif Bayatlının "Torpağım da qısqanacaq", "Bir yarpaq göyüzü yaşar", "Güllü xəncər", "Qaranlıqdan çıxan adam", "Yanıq kamança", "Uzun güzgü qabağında" (və daha yeddi şeir) əsasında sənədli film üçün yazdığı ssenarini rejissor başda olmaqla yaradıcı heyətə oxuyurmuş.

Bu mənzərəni də yozub-düzüb "şeytanla şəkil çəkdirmək" kimi qələmə verməyə çalışanlar tapılıb. Qələm sahibini qələmə vermək, ömür verdiyi qələmlə dağ-dağ eləmək eləmi çətindir! Hesaba alanda ki, indi doğrudan çox yalana, həqiqətdən artıq uydurmalara inananlar peyda olub...

və son olaraq...

Vaqif bəyin "Qaranlıqdan çıxan adam" şeirində belədir:

*Çək apar məni,*
*şeytan cildində mələk!*
*Sevgisiz ömürdən*
*min dəfə şirindir*
*bir gözəl şeytana*
*aldanıb ölmək!*

Hekayətin canı bəlkə də elə buralarda imiş...

**İBRAHİMXƏLİL**

# HEYVANLARIN İNSAN SEVGİSİ

İnsanlar heyvanları əhliləşdirməyə və onlardan istifadə etməyə çox qədim vaxtlardan başlamışlar. Heyvanların əhliləşməyə uyğun olması bizim üçün olduqca mühüm bir hadisə olmuşdur. Hətta it kimi sahibinə çox sevgi bəsləyə bilən heyvanın əhliləşdirilməyə uyğun olduğunu sadəcə biz insanlar bilmirik. Bu barədə haradasa oxumuşdum ki, "babuin" meymunları küçələrdən köpək balalarını oğurlayıb, böyüdüb, yanlarında gəzdirərlərmiş.

İt, istər küçə iti olsun, istər qapı iti, digər heyvanlardan fərqlənməkdədir. Sahibi ölən itlərin sahibinin öldüyü yerdən illərlə uzaqlaşmayıb, onun nə vaxtsa qayıdacağını gözləməsinə sosial mediada dəfələrlə rast gəlmişəm.

Mənim üçün küçə itləri də maraqlı olub. Dəfələrlə rayondan yaşadığım kəndə gecə qayıdası olmuşam və rayondakı küçə itlərinin hücumuna məruz qalmışam. Əlbəttə, bu hücumlar yüyürüb dişləmək məqsədi daşımırdı, yəqin ki, qorxutmaq məqsədi daşıyırdı. Ancaq özüm üçün bu küçə itləri ilə də dostlaşmağın yolunu kəşf etmişdim. Hücumlarına məruz qaldığım itlərə əvvəlcə yaxınlaşardım ki, onlardan qorxmadığımı anlasınlar və mən bu cür hərəkət edəndə, təbii olaraq, itlər məndən uzaqlaşardı, yəqin ki, qorxduqları üçün. Sonra isə itlərin uzaqlaşdığını görüb mən də onlardan uzaqlaşardım ki, itlər cürət tapıb təkrar mənə sarı gəlsinlər, elə də olardı. Bu yaxınlaşıb-uzaqlaşmaqdan ibarət olan hərəkəti bir neçə dəfə təkrar etdikdən sonra itlər artıq məni aralarına alar və ətrafımda hamısı quyruq bulayar, bəziləri isə ayağımın altına yıxılardı.

Heyvanların bir qisminin ətindən istifadə etdiyimiz üçün həmin heyvanlara qarşı çox da mərhəmətli olmuruq, onların başını bədənindən ayırarkən "Allahu əkbər" deyərək vicdani məsuliyyətimizi Allahın boynuna yıxırıq və vicdan əzabından xilas oluruq. Quzu alıb saxlayıb onu özünə öyrədənlər yaxşı bilər, bu heyvanları körpə vaxtından özünə öyrəşdirirsən və bu heyvanlar hara getsən sənin dalınca gəlir, sən bu heyvan üçün sığına biləcəyi ən etibarlı məxluq olursan. Quzu vaxtı alıb özünə öyrətdiyin heyvan böyüyüb qoyun olur, amma yenə də səni ən etibarlı dostu bilir. Və sən böyüməyini gözlədiyin bu heyvanı kəsməyə hazırlaşırsan. Əlbəttə, özünə bu cür öyrətdiyi heyvanları kəsməyə qıymayanlar da var.

At və köpək kimi heyvanların etibarlılığından da xalq arasında olduqca çox danışılır. İnsanlar at, köpək, pişik kimi heyvanları özlərinin dostu bilirlər. Yeniyetmə yaşlarımda yazıçı İsmayıl Şıxlının "Dəli Kür" romanında prototipi öz babası olan Cahandar ağanın ona ədavət bəsləyənlər tərəfindən atının boynunun qırxılmasını oxuduğum yadıma gəlir. Bu hadisədən sonra Cahandar ağa öz atını güllələyir. Yəni öz etibarlı heyvan dostunu, həmiçinin də bu heyvanın etibarını namusuna qurban edir.

Köpək, pişik, at kimi heyvanlara isə ətlərindən istifadə etmədiyimiz üçün olduqca mərhəmətliyik. Məsələn, hansımızınsa itimizi öldürməyimizi təsəvvür belə etmərik. Bunu az qala insan öldürməyə bərabər sayırıq. Küçə iti olsa belə itlərə qarşı olduqca mərhəmətliyik. Yaşadığım kənddə bir nəfərin səhvən ov tüfəngi ilə küçə itini vurduğunu və peşman olub hansısa bir din xadiminin qəbuluna getdiyini duymuşam.

Mən öz itimi adətən bağlı saxlayardım. Çünki açıq olanda hara getsəm dalımca gələrdi, bəzən toy məclisinə, bəzən yas məclisinə getməli olardım, it də gələrdi yanımca və toy, yas yerinin sahibindən söz eşidərdim. İtim son vaxtlar elə də möhkəm bağlamadığım üçün tez-tez açılardı.

Bir gün qonşunun oğlundan belə bir təklif gəldi ki, gəl itlərimizi boğuşduraq. Onun iti mənim itimdən azca böyük olmasına baxmayaraq, heç düşünmədən qərarımı verdim. Boğuşduraq dedim. İtimin dalımca gələcəyini bildiyimdən onu döyüş meydançasına aparacağımdan heç bir şübhəm yox idi. Elə də oldu, itimi döyüş meydançasına asanlıqla apara bildim. İtlər bir-birini görən kimi bir-birinin üzərinə şığıdu, qəflətən qonşunun iti qoçaq çıxıb mənim itimin ağzından yapışdı. Heç cürə ağzını açmağa imkan vermədi. Uzun müddət itimin ağzını buraxmadı. Heyvanın yazıq-yazıq zingildəməsi mənə təsir elədi, az qala qonşunun oğluna yalvarırdım ki, kömək elə itimi sənin itinin ağzından xilas edək. O da sağ olsun, kömək eləməyə çalışdı. Doğrudur, qonşunun iti mənim itimin ağzını buraxdı, ancaq bu dəfə qulağından yapışdı. Axırda haradan ağlıma gəldisə, qonşunun itinə möhkəm bir təpik ilişdirdim və itimi xilas etdim, evə apardım.

Qapıda qana bulaşmış başını sığalladım. İtimin belə bir xasiyyəti var idi, nə qədər çox çörək yesə yenə də istəyirdi. Onun bu xasiyyətini bildiyimdən öz vicdanımı rahatlatmaq üçün xeyli çörək qırıb verdim. Növbəti gün yazıq heyvana çörək verdim, əvvəlcə çörəyə yaxınlaşdı, iylədi, yemək istədi, yeyə bilmədi. Vicdan əzabı çəkdiyimi ailəmə bildirmək istəmədim. İtin çörək yeməməyi mənə olduqca təsir elədi. Evdəkilərə toyuq ətini sevməsəm belə ürəyimin toyuq əti istədiyini söylədim. Onlar əvvəlcə təəccübləndilər, sonra isə doğrudan da toyuq əti istədiyimə inandılar. Məqsədim xəstələnmiş heyvana toyuğun içalatını vermək idi. Toyuğun içalatını və ayaqlarını itin



qabağına atdım, əvvəlcə mənə baxdı, quyruğunu buladı, sanki mənim bu yazıqlığımı başa düşdü və mənə əzab verməmək üçün çətin də olsa içalatı yedi. Çox keçmədi ki, yediyini qaytardı. İtimin bir xasiyyəti də var idi, təzə bişmiş çörəyi çox sevərdi. Təzə bişmiş çörəyi anam təndirdən çıxarıb qapıya gətirəndə səsi qapını götürərdi ki, o çörəkdən mənə də verin. Bu dəfə də elə oldu, çörək bişirildi və qapıya gəldi, ancaq heyvan heç bir reaksiya vermədi.

Artıq bir həftə idi ki heç nə yemirdi. Öləcəyinə əmin idim. Son bir ümidim var idi, deyirdim bəlkə təzə bişmiş çörəyi yeyə. Ancaq yeyə bilmədi. Özümü olduqca pis hiss edirdim. Bir neçə gün də keçdi və bir gün axşamdan qalmış duzlu kartof soyutmasını anam itin qabağına tökdü. Və it yeməyə başladı. Həyatımdakı ən sevindiyim anlardan biri idi bu. Artıq itin sağalacağına əmin idim və sağaldı da. Özümə söz verdim ki, artıq heyvanlara qarşı daha mehriban olacağam. Və ömrümdə ilk dəfə olaraq özümü bir heyvana qarşı minnətdar hiss elədim. Minnətdar hiss elədim ki, nə yaxşı ölmədi, sağaldı, məni vicdan əzabından xilas elədi.

**Vüqar VƏKİLOĞLU**



# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## TƏBİƏTİN VƏ TARİXİN HARMONİYASI

## 2. TƏBİƏTLƏ İÇ-İÇƏ YAŞAYAN XALQ

*(əvvəli ötən sayda)*

Hər şeyin gözəli bizdə deyilmi? Uçarda turac, qaçarda ceyran. Uca dağlar, yaşıl çəmənlər. Nəyimiz əskikdir? Heç nəyimiz, hər şeyimiz yerli-yerində. Az qala dünyanın gözü bizdədir. Amma. Bircə bu "əmma" olmasaydı. "Əmma"sız da işimiz aşmır elə bil. Hər gözəlin bir eybi var. Biz olanımıza yağı kəsilmişik, düşmən olmuşuq. Belimizi qıran da budur. Biz heyvanları, quşlar da bura daxildir, qazanda, tavada, şişdə bozartmalıq, qızartmalıq etməyi, qaynatmağı daha çox sevirik, nəinki onların təbiətdə canlı dolaşmalarını. Bu iddiamı əsaslandırmaq üçün şair Eldar İsmayıloğlunun bir şeirini özümə tutalğac seçirəm və həmin şeiri bütövlükdə verməkdən özümü saxlaya bilmirəm. Lütfən oxuyun:

*Biz mələkləri göydə,*
*Quşları isə odda yandırıb, şişdə sevdik...*
*Südüylə böyüdüyün inəyimizin balasını kəsdik,*
*Sənə toy elədik...*
*Sən xoşbəxt oldun, oğlum, inəyimiz gözü yaşlı...*

*Toyunda hamının mədəsi necə də xoşbəxt görünürdü...*
*Bədbəxt gözlərdən.*

*Balıqların sükutunu sevdik,*
*Balıq qızartmasını da...*
*Çünki xoşbəxtliyimizi dişlərimizlə geyindik ömrümüzə...*

*Ən gözəl gülləri ən gözəl günlərə dəfn elədik,*
*Bir dəstə qönçə tumurcuq, qönçə əllərdə can verdi.*

*Bax, oğlum, körpə quzu da mələdi,*
*Bildi ki, qonaq gözləyirsən,*
*Bıçağı gətir, sevdiyin ağaclardan ocaq qala...*
*Qəza namazını axşam qılarsan...*

Şairimizə çox mətləblərdən xəbər verən bu poetik parçaya görə, təşəkkürümüzü bildirib, mövzunu növbəti abzasda davam etdirməyə çalışaq.

Düzdür, şairin şeirdə səsləndirdiyi bir çox müddəalarla razılaşmaya da bilərik. Amma bizim razılaşmamamız nəyisə dəyişmək üçün yetərli deyil. Bu məqamda kiminsə avropalılar inəklərin balasını kəsmirlərmi, ət yemirlərmi, balıq qızartmasından imtinamı edirlər, bayramda-seyranda sevdiklərinə gül bağışlamırlarmı, qonaqlarını acmı yola salırlar, manqal qalayıb kabablamırlarmı kimi sualları sıralayıb, bizə ünvanlamasını da gözlənilən sayırıq. Hə, Niderlandın ət istehsalçısı olduğu, hətta bir sıra ölkələrə ət ixrac etdiyi də məlumdur. Bu ölkə dünya xəritəsinə bənzəyən ağ-qara rəngli ətlik-südlük inəkləri ilə məşhurdur. Ancaq o inəklərin balalarının, yəni ətlik heyvanların kəsilməsi o qədər qapalı şəraitdə həyata keçirilir ki, bəlkə də çoxları yediyi əti elə bu cür hazır şəkildə vitrinlərə düzüldüyünü, təbiətin elə bu cür yaratdığını düşünür. Məncə, bir fərqimiz bundadır. Az qala unudurdum, Qurban bayramında colma-cocuğun gözü qarşısında heyvan kəsmə mərasimimizi də unutmayaq, bunu da bir qaydaya salmamız gərəkir.

Quşlara münasibətdən danışmayım, məncə. Nədən ki, yuxarıda bu barədə xeyli danışdım. Başağrısı olmasın. Kiçik bir müşahidəmi deməklə kifayətlənim. Hər dəfə su mənbələrində şad-xürrəm ömür sürən quşları görəndə bunların indiyədək ətini nə yaxşı şişə çəkməyiblər, biz tərəflərdə olsaydılar bu quşlar çoxdan qazanda qaynadılıb, şişdə bişirilmişdi, qızartmalığı qızartmalıq, bozartmalığı da bozartmalıq edilmişdi, indi çoxdan yeyilib üstündən də su içilmişdi kimi fikirlər məni vəsvəsələndirirdi. Bunlar Niderlandın azad quşlarını görəndə qafamdan keçirdiklərimdir. Nə danı var, nə daldası. Bu düşüncələrimdən sonra nə etməli, biz də beləyik deyib, təskinlik tapmışdım. Bunu da bir fərqimiz saya bilərik.

Niderlandda keçirilən toy mərasimləri bizim dəbdəbəli toylarımızla müqayisədə qat-qat sönükdür. Bizim toylarımızın yanında holland toyları çox kiçik, hətta kasıbyana görünür. Nə bizim toy süfrəmiz, nə toyda təqdim etdiyimiz təmtəraq onların toyu ilə müqayisəyə gəlməz. Düzünü desəm, mən toy adətlərimizin qorunmasının, onun etnoqrafik dəyərlərinin daha da gəlişdirilməsinin, hətta bu mərasimimizin dünyaya təqdimatının yollarının axtarılmasının, toy turizminin yaradılmasının və bundan yararlanmağın tərəfdarıyam. Ancaq toy süfrələrimizin tam sadələşdirilməsinin, yeməkiçmək mərasiminin dəbdəbə halını almasının əleyhinəyəm. Bu da digər fərqimiz.

Niderland mətbəxində balıq məhsullarından geninə-boluna istifadə edilir, dənizin nemətlərindən fərqli yeməklər hazırlanır. Tarixən hollandların dənizçiliklə məşğul olduğunu, dənizçiliyin balıqçılığı da ehtiva etdiyini düşünsək, Niderland insanının balıqçılığa düşkün, balıq tutmaq sevdalısı olduğunu də söyləyə bilərik. Bunu kanallara tilov atan balıq tutma həvəskarlarının çoxluğu da sübut edir. Balıqtutma həvəskarları istədikləri qədər balıq ovlaya bilərlər. Bir şərtlə. Tutduqları balıqları suya atmalıdırlar. Azarını öldürdünmü, əyləndinmi? Bu qədər yetər. Balıqmı yemək istəyirsən? Buyur markətə, istədiyini al. "Balıq istəyənin ayağı suda gərək" məsəli buralarda işə yaramır, keçərli deyil. Bizim brakonyerlərin dərmanla, partladıcı ilə, elektriklə balıqların, balıqlarla bərabər suda yaşayan digər canlıların da kütləvi qətliamını necə həyata keçirdikləri görən olsa, bizə nə deyər, cəmdəyimizə tüpürməzmi? Bu da başqa bir fərqliliyimiz.

Niderland güllər, çiçəklər ölkəsidir. Bu məsələdə hansısa dövlətin Niderlandla bəhsə girməsi də mümkünsüzdür. Bu müasir Niderlandın mübahisəsiz üstünlüyüdür. Minbir əziyyətlə yetişdirilən qərənfillərimiz gözümün önünə gəlir. Onu yetişdirənləri, satışını gerçəkləşdirənləri isə, sovetlərin təqib etdiyini, cəmiyyətin nikahdankənar övladları saydığını, xalqımıza ikrahdoğurucu "gülsatan" adı yapışdırdığını da unutmayaq. 20 Yanvar faciəsinin simvoluna çevrilən qan rəngli qırmızı qərənfilləri məhz bu zəhmətkeş insanlarımız əkib becərirdilər. Lütfən, bunu da unutmayaq. Gülləri sevən Niderland cəmiyyəti, onun aqro-texniki qaydada becərilməsini də, onu dünya bazarına çıxarıb, qazanc əldə etməyi də əla bacarır. Niderland bankirlərinin XVI yüzilliyin sonlarından etibarən dünya miqyasında çox gözəl maliyyə əməliyyatları apardıqlarını, hollandların pul qazanmağın yollarını əla bildiklərini, gül ticarətinin gəlirli sahə olduğunu təcrübədə sınaqdan keçirdiklərini, böyük valyuta vəsaitlərinin ölkəyə gətirilməsinin bir yolunun da gül biznesinə bağlı olduğunu çoxdan mənimsədiklərini yada salıb, gülçülüyün burada mühüm önəm kəsb etdiyini çəkinmədən söyləyə bilərik. Gülün gözəllik qaynağı, gəlir mənbəyi olmasını da xalqlarımızın oxşarlığı hesab edə bilərik.

Hollandlar da qonaq gedirlər, onların da qapısını tez-tez qonaqlar döyür. Bunu dəfələrlə müşahidə etmişəm. Onların əziz qonaqlarına quzu kəsdikləri isə tarixə qovuşmuş olmalıdır. Heç onların kiməsə "quzum" deyə müraciət edib-etmədikərini də, kiməsə "gülüşünə quzu kəsim" və ya "yerişinə quzu kəsim" deyib-demədiklərini də bilmirəm. Bir şeyi də bilməyək, dünya dağılmayacaq ki? Bunu nə fərqlilik, nə də oxşarlıq saymayaq. Nədən ki, bu sahədə məlumatsızlığım göz qabağındadır.

Təbiəti sevməkdə, onu qorumaqda biz hansı səviyyədəyik, başqaları hansı? Göbələk toplayanlarımızın az qala torpağı alt-üst etdiklərinin, göbələkləri köklü-kömə-cli qopardıqlarının, ağına-bozuna baxmadan analı-balalı torbalarına doldurduqlarının dəfələrlə şahidi olmuşam. Elə hər birimiz də bunun ya iştirakçısı, ya da şahidi olmuşuq axı? Heç birimiz yaxamızı qırağa çəkə bilmərik. Tayqada göbələk toplayan sadə rusların hər bir göbələyə necə ehtiyatla yanaşdıqlarını, topladıqları göbələyi kökündən qoparmamaq üçün iti bıçaqla torpaqdan bir qədər yuxarı necə kəsdiklərini gözümün önünə gətirirəm. Göbələklərin yenidən məhsul verməsi üçün bunu şüurlu şəkildə etdiklərini də bilirəm. Milyonlarla göbələyin olduğu bir məkanda rusların bu cür davranışını necə adlandıraq ki, nə şiş yansın, nə kabab?

Biz ağacların kəsilmiş halını sevirik – "başı kəsik, gözəl kötük" kimi. Odun kimi, sobamızın yanacağı kimi. Tikinti materialı kimi – evimizin döşəməsi, qapı-pəncərəsi kimi. Kömür kimi – kababımızın odu kimi. Vallah, biz ağacları çox vaxt ayaq üstə duranda deyil, böyrü üstə olanda sevirik. Ayaqüstə duranların bizə heç nə vermədiyini güman edirik. Kəsilmişin əlimizdə dəyənəyə dönməsinə görə, ocağımızda köz üçün yaradığına görə xətrini dağlar qədər istəyirik. Bu, bizim acgözlüyümüzdənmi qaynaqlanır, yoxsa yoxsulluğumuzdanmı? Bunun adını da siz qoyun. Deyəsən, ifrata vardım, ucundan tutub ucuzluğuna getdim. Qüsura baxmayın.

Niderland yaşıllıqlar ölkəsidir. Yaz gəldimi yaşıllıqlar hər yerdə səni təqib etməyə başlayır. Qışın çılpaqladığı ağacların arasından görünən evlər, binalar yaşıllığa bürünür, sanki gözəgörünməz bir əl vasitəsi ilə insan gözündən gizlədilir, hər şey yaşıllığın gərdəyi arxasında görünməz olur. Yazın gəlişilə yaşıllığın kükrəməsi, bütün rənglər üzərində hökmranlığı başlayır. Yaşıllığın bu ifrat təntənəsi bəzən başqa rənglərin yoxa çıxdığı, qeybə çəkildiyi təəssüratı yaradır. Yaşıllıq Niderlandı kirdən-pasdan arındırır. Yaşıllıq ölkəni təmiz hava ilə təmin edən ağciyərə bənzəyir. Düzdür, bu işdə ona ölkənin hər yerində mövcud olan su mənbələri də yardımçı olur. Niderlandın yaşıllıqlar ölkəsi olmasını aprel günlərində rast gəldiyim bir xəbər də təsdiqləyir. "Lounli Planet" saytı ölkənin paytaxtı Amsterdamı dünyanın ekoloji cəhətdən ən təmiz və yaşıl şəhərləri versiyasının ilk onluğuna daxil edib.

Gözü aran yerinin bozluğuna alışmış adama Niderland yaşıllığının bolluğu yorucu da görünə bilər. Bu da təbii sayılmalıdır.

Bu təbiətə bağlılıq, yaşıllıqlara, güləçiçəyə vurğunluq, heyvanlara, quşlara aşiqlik Niderland cəmiyyətinə rahatlıq dolu bir həyat bəxş edib. Təbiətlə iç-içə yaşama, təbiətlə cəmiyyətin vəhdəti, insanın öz ilkin mahiyyətindən – bioloji varlıq olmasından qopmaması, təbiətdən dördəlli yapışması Niderland cəmiyyətinə hirsdən, hikkədən, qəzəbdən uzaq olmağı aşılayıb. Burada hamının başını sallayıb öz işini görməsinin, başqalarının işinə burun soxmamasının, başqalarının həyatını zəhrimara döndərməməsinin bir səbəbi də təbiətə bağlılıqdan qaynaqlanmalıdır. Öz enerjisini zəhərə çevirərək, başqalarına ötürmək yerinə təbiətə bağlı qalmaq daha gözəl deyilmi? Öz enerjisini aqressiya səviyyəsinə qaldırıb, bu enerjini bıçağa, gülləyə yükləyərək, kiminsə həyatını puç etmək əvəzinə güləçiçəyə, itə-pişiyə sevgiylə yanaşmaq daha doğru seçim deyilmi? Təbiətlə baş-başa qalmaq hollandlara həyatdan zövq almağı, bu "üçgünlük, beşgünlük" dünyanın ləzzətini çıxarmağı, "ayran iç, qulağı dinc" yaşamağı öyrədib. Hər gün təbiət gözəllikləri ilə qarşılaşmaq bu insanlara təbiətin özü kimi sadə olmağı, onun bir parçası olduğunu unutmamağı, ona qarşı ədalətli davranmağı, insanın təbiətsiz bir dəyərinin olmadığını xatırladıb. Və bütün bunlar insan-təbiət harmoniyasının pozulmamasına gətirib çıxarıb.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## BEÇARA



(əvvəli ötən sayda)

"Ay oğlan, hələ qoymamısan ki, heç yerdə görünmürsən?" – Bu kitabın bəzi səhifələrinin dolğunlaşdırılması üçün baş çəkdiyim 74 yaşlı qoca şair Beçara mənə belə müraciət etdi.

Alçaq, kök, heç də çox qamətli olmayan, yaşlı, amma həyat eşqi ilə dolu. Köhnə qaraçoxelinin yeganə nüsxəsi-arxalığı, enli balaqlı şalvarı və gümüş kəməri ilə... Qəlyan həmişə onun ağzında olub. Xoş sifətlə gülümsəyir.

Bax, Beçaranın silüeti belədir.

Beçara Muxran bazarında alver edir.

– Nə ilə alver edirsən? - deyə bir dəfə soruşdum.

– Mövsüm alverçisiyəm, qışda balıq satıram, yayda tərəvəz.

Beçara şəhərin xalq şairidir. Onun bu şeirini kim bilmir:

***"Həştərxanın yolunda gəmi bənd olur,***
***İçində oturanların ürəyi acı kədərlə dolur..."***

Beçara savadsızdır. Yox, bu azdır, Beçaranın kitab barədə və qələm barədə heç cür təsəvvürü belə yoxdur. Bu nəsə nadir hadisədir. Özü yazmaq-oxumaq bilmir və camaatın ürəyində kitab oxumaq istəyini oyadır. Əgər Yetim Gürcü kağız zərfləri üzərində gürcü dilini öyrənirdisə, Beçara üçün bu cür "təhsil" də yaddır, çox uzaqdır. Onun imzası xaçdır (+). O, bu faksimiliya vasitəsi ilə özünün kiçik alış-veriş əməliyyatını həyata keçirir və heç kim fikirləşməsin ki, Beçara özünün xaçlı nişanını başqasının elə bu cür yazısı ilə səhv salsın.

Bu köhnə vaxtın canlı salnaməsi köhnə çərçivələrə çevrilib və sanki onun ətrafında heç nə gərək ki, dəyişməyib. Köhnə vüqarlı qaraçoxeli kimi elə yenə qəlyanını rahatca tüstülədir, elə yenə onun əcdadı ustad aşıqlar kimi müxəmməssayağı qoşqu qoşur.

Beçaranın hər bir şeiri "fars avazı üzərində deyilməsi üçün" yaranıb:

Beçaranın yaradıcılıq prosesi mahnıdır. Əlifbasız şair olaraq oxuyur və mahnı ilə şeirin sətirlərini düzüb qoşur: "Şarişuri" *(mahnıda bir növ avaz - müəllif)* avazında, cahargah avazında, dübeyti avazında və sair. Bax, dialoq formasında müəllifin qığılcımlı sözləri və cananın soyuqluqla dediyi sözlərinin əhatə olunduğu orjinal bir şeir:

**"Səmayi avazında** *(Fars şeir növünün bir növ avazı - müəllif)*

***Canana dedim, min rəngə boyanıbsan.***
***Dedi, nə sayıqlayırsan, andırın biri andır.***
***Dedim, gözəl, çölün cüyürüsən.***
***Dedi, aralaş, mənim düşmənimsən.***

***Canana dedim, sənin qadan alım.***
***Dedi, səni başqasına dəyişdim.***
***Dedim, sənsiz tamam bitdim, tükəndim.***
***Dedi, bu azdır, hələ cavansan.***

***Canana dedim, axırım nə olacaq.***
***Dedi, səs çıxarmağa haqqın yoxdur.***
***Dedim, Beçara səndən ötrü ölür.***
***Dedi, gülməlisən, axmaq, səfehsən!"***

Beçaranın şeirlər kitabı nəşr olunmayıb, amma Tiflis sazəndələri arasında dəf tutanların hamısı onun şeirlərini əzbər bilir: "Oxuya bilmədim", "Orada dur", "Təəccüblənmirəm", "Nə oyundur" və sair. Əgər Givişvili və Skandarnovanın bütün çırtmaları əlüstü mətbəəyə yönlənirdisə, Beçara öz qılafına sərbəst şəkildə sığırdı. O, kitabları nə oxuyurdu, nə də nəşr etdirirdi. Onun şeiri işıldaquş kimi şairin məhvərində qəflətən elə peyda olurdu ki, özü də bilmirdi, hansı müğənni öz havasında onu hərəkətə gətirəcəkdi. Onun şeirlərinin miqdarı ayırd edilməmişdir. Onun havalarını Tiflis müğənniləri asanca hiss edir və çox hallarda dinləyicilərə müəllifin kimliyi bu günə kimi naməlum olaraq qalmaqdadır *(Mənim bəzi dostlarım indi də bilmirlər ki, xalq arasında yayılan mahnı üçün şeirlər bu şairlərə məxsusdur: 1. "Bir dəfə bağda gül gördüm, qurumuş, ətirsiz, şillə ilə şillələdim" – Kots. Eristaviyə; 2. "Küləklər əsir, ətürpəşdirici külək" və "İstəyirəm sevəsən məni" – Silovana (tərcümə olunub); 3. "Görəsən, indi haradasan, hansı tərəfdə" – Nino Orbelianiyə; 4. "Mən balaca gürcüyəm" və "Əzaba öyrəşdi ruh və ürək" – Dutu Meqreliyə; 5. "Yuxuda narahat idim, inləyirdim, ağlayırdım" – Kote Mağaşviliyə; 6. "Rəngli arzu ilə oxuyurdum!" – Bu sətirləri yazana (Bax: I cild, səh. 100 və sair).*

Təəccübedici haldır ki, daxılın hər bir yüzaltınını *(XVII-XIX əsrlərdə Tiflis zərbxanasında kəsilən pul vahidi - M.M.)* sanki hesablamalı olduğunu bilən iki quruşluq göyərti satıcısı beləcə qayğısızlıqla öz şüurunun bəhrəsinə yanaşır və bohemik əlyelləətmə ilə kiçik duyğularının kiçik bezdirici yalvarışlarını səpələyir.

Az təəccübedici hal deyildir ki, bu yaşda olan insan şəxsi baxış intensivliyinə və "ölüm mələyinə " nikbincəsinə boylanır. Beçara üçün "Əzrayıl-Cəbrayıl" real şəxslərdir, "namussuz", "acgöz". Onun üçün ölüm təhlükəsi mövcid deyildir. Xoş əhval-ruhiyyədə olan şair inanır ki, həyat ölümün öhdəsindən gəlir.




Bax, elə şirin avazla Beçara ölümə müraciət edir:

***"Ey Əzrail, nədir fikrin, öldür məni, gözləyirəm səni – şen geli.***
***Bilirsən ki, sənin yeminəm, mən qoyunam, sən canavar – şen mqeli.***

***Görən, niyə gecikirsən, fikrində, düşüncəndə nə var,***
***Sənin namussuzluğunu küçə-küçə dolandırım,***
***Anlamıram, nə lovğalanırsan, mənim haqqımda artıq nə bilirsən,***
***Ey əqrəb, gəl, zəhərlə məni, nə baxırsan, səni gözləyirəm!***

***Sənin qorxundan beşikdə uşaq ağlayır,***
***Yadıma düşürsən, yorğanımda rahat ola bilmirəm,***
***Vaxt olar, sən kameraya düşərsən, –***
***Burada mənə yaz, gəl, gör məni, gözləyəcəyəm səni!.."***

Beçara öz tərcümeyi-halını mənə belə yazdırdı: "Mən Vasil Avetovic Beriyev, Amağlebada *(Xristian bayramı - Dirilmə - M.M.)* 74 yaşında olacağam. Mənim ulu babam Qori qəzasının Svelneti kəndindən Tiflisə köçüb. Mən burada anadan oldum. Qəhvəxanaya getməyə başlayanda 18 yaşında idim. Aşıqlarla söhbəti və onlardan məsləhət almağı çox sevirdim. Bundan sonra özüm də qəhvəxana açdım. Aşıqların xeyir-dua mərasimi olanda mənə də xeyir-dua verdilər və adımı Beçara qoydular, bu da ki, yazıq mənasını verir. Yazıb oxumağı heç bilmirəm və öyrənməmişəm. Rəqəmin nə olduğunu da ayırd edə bilmirəm. Şeiri yazan zaman hecaları təsbehdə sayıram. Mahnını, qəlyanı və təsbehi sevirəm".

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 30 SENTYABR 2021-Cİ İL №018 (141)

## MƏKTƏB DİREKTORU QOHUMUNU İŞƏ GÖTÜRƏ BİLƏRMİ?



Maraqların uyğun gəlməməsinə görə müəllimlər və məktəb rəhbərliyi üçün məhdudiyyətlər tətbiq olunub. Belə ki, hamı Qəyyumlar Şurasının üzvü ola bilməz. Həmçinin, əgər **Qəyyumlar Şurası razılıq verməzsə direktor öz qohumunu məktəbdə işlə təmin edə bilməz.**

Məktəb rəhbərliyinin üzvü Qəyyumlar Şurasının üzvü ola bilməz. Həmçinin valideyn statusu olaraq həmin məktəbdə işləyən şəxsin üzvlüyə qəbul edilməsi yolverilməzdir.

Direktorun qohumunun məktəbdə işlə təmin edilməsinə gəldikdə isə, ictimai **məktəb direktoru və onun yaxın qohumu arasında əmək müqaviləsinin bağlanması üçün Qəyyumlar Şurasının razılığı mütləqdir.** Əgər Qəyyumlar Şurasının üzvü işlə təmin olunmaq istəyən şəxsin yaxın qohumudursa, həmin şəxs səsvermədə iştirak etməməlidir.

Bundan əlavə, maraqların uyğunsuzluğuna görə, ictimai məktəbin Qəyyumlar Şurası, Nizam-intizam Komitəsi və Apelyasiya Komitəsinin üzvləri bir-birinin yaxın qohumu ola bilməzlər. İstisnaya yalnız nazirliyin razılığı ilə yol verilə bilər, o da, kiçik kontingentli ictimai məktəblərdə.

Həmçinin ictimai məktəb rəhbərliyinin üzvləri bir-birinin qohumu ola bilməzlər. Bu halda da istisnaya nazirliyin razılığı ilə, kiçik kontingentli ictimai məktəblərdə yol verilə bilər.

Xatırladaq ki, Qəyyumlar Şurası məktəbin özünüidarəsinin ali seçim orqanıdır. Şura məktəb direktorunu seçir, eləcə də məktəb büdcəsini, daxili tənzimləmələri, şagirdin məktəbdən çıxarılma şərtlərini təsdiqləyir və digər mühüm məsələlərə qərar verir.

*Mənbə: etaloni.ge*

## AMİRAN QAMKRELİDZE: BU PANDEMİYANI PEYVƏND OLUNMADAN MƏĞLUB EDƏ BİLMƏYƏCƏYİK



Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze oktyabrın 4-dü təhsilin məktəb mühitində davam etdirilməsi haqqında danışaraq bildirib ki, uşaqlar mütləq məktəbə getməlidirlər. O, həmçinin peyvənd və maskadan istifadənin ümumi göstəricilərindən də söhbət açıb: *"Axı uşaqlara təhsil lazımdır?! – Mütləq məktəbə getməlidirlər. Balacalar onlayn təhsilə uyğunlaşa bilmədilər və problemlər var. Buna görə, hamını peyvənd vurdurmağa çağırıram. Əgər biz maska taxmaq göstəricisini 95 %-ə qaldıra bilsək, yalnız maska ilə biz dekabr ayına qədər 200-250 adamın həyatını xilas edə bilərik. İndi bu göstərici 34 %-dir. İki doza ilə peyvənd edilmiş 1000 nəfər 1 xilas edilmiş həyat deməkdir. Yeni hesablamalara görə, hətta daha az. İndi deyirlər ki, iki doza ilə peyvənd edilmiş 500 nəfər 1 xilas edilmiş həyatdır. Buna görə də, artıq peyvənd olunmuş şəxslərə minnətdarıq. Ancaq başqalarını da peyvənd vurdurmağa çağırırıq. Bu pandemiyanı peyvənd olunmadan məğlub edə bilməyəcəyik".*

*Mənbə: etaloni.ge*

## ELAN




Qardabani Gənclər Mərkəzi Qarabağ müharibəsinin ildönümünə həsr olunmuş "Zəfərə doğru addımla" adlı müsabiqə elan edir.

Müsabiqə videoçarx, karikatura və rəsm, esse və məqalə (jurnalist araşdırması) kateqoriyalarında keçiriləcək.

Müsabiqədə 16-25 yaş arası gənclər iştirak edə bilərlər.

Birinci, ikinci və üçüncü yerlərin qalibləri diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

Materiallar 20 oktyabr 2021-ci il tarixinədək bu ünvana göndərilməlidir: musabiqegurcustan2021@gmail.com.

Ətraflı məlumatı Qardabani Gənclər Mərkəzinin feysbuk səhifəsindən öyrənə bilərsiniz.

## ASİYA İNKİŞAF BANKI GÜRCÜSTANA 15 MİLYON DOLLAR KREDİT AYIRIB




Asiya İnkişaf Bankı (ADB) Gürcüstan hökumətinə 15 milyon ABŞ dolları məbləğində kreditin verilməsini təsdiqləyib. Bu barədə bankın yaydığı məlumatda bildirilib.

Vəsait Gürcüstanda COVID-19 infeksiyası əleyhinə peyvəndlərin alınmasına və ölkədə vaksinasiya proqramının imkanlarının gücləndirilməsinə yönəldiləcək.

ADB-nin dəstəyi Gürcüstan əhalisinin 8 %-i və yaxud 300 mindən çox vətəndaşın peyvəndlənməsinə imkan verəcək.

## GÜRCÜSTAN "JOHNSON&JOHNSON" PEYVƏNDİ ALACAQ




"Gürcüstan koronavirus əleyhinə "Johnson&Johnson" peyvəndinin alınması ilə bağlı danışıqlar aparır". Bunu ölkənin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze deyib.

Onun sözlərinə görə, preparatın əldə olunması üçün Almaniya donor kimi çıxış edəcək.

""Johnson&Johnson" peyvəndi tək dozalı vaksindir, tətbiqi rahatdır və yaxşı nəticələr verir", - deyə A.Qamkrelidze bildirib.

Qeyd edək ki, hazırda Gürcüstanda COVID-19-a qarşı peyvəndlənmə prosesində 4 preparatdan – "Sinovac", "Sinopharm", "AstraZeneca" və "Pfizer"-dən istifadə olunur.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.